BAKI UNİVERSİTETİNİN XƏBƏRLƏRİ
№1 *Sosial-siyasi elmlər seriyası* 2008

# AZƏRBAYCAN RESPUBLİKASINDA SAXTA PUL VƏ YA QİYMƏTLİ KAĞIZLAR HAZIRLAMA VƏ YA SATMA HAQQINDA CİNAYƏT QANUNVERİCİLİYİNİN İNİKİŞAFI BARƏDƏ

**Ə.M.CAVANBƏXT LALƏ**
***Bakı Dövlət Universiteti***

Saxta pul və ya qiymətli kağızlar hazırlama və ya satma xüsusi ictimai-təhlükəliliyi ilə fərqlənən cinayətlərdəndir. Bu əməllərin ictimai təhlükəliliyi qeyri-qanuni tədavülə buraxılan saxta pul və ya qiymətli kağızların ölkənin maliyyə-pul sistemini ciddi təhlükə altına qoymasından ibarətdir. Saxta ödəniş vasitələrinin tədavüldə olması nəticəsində bazar münasibətlərinin müxtəlif subyektlərinin iqtisadi mənafelərinə mühüm ziyan vurulur. Elə bir cinayət yoxdur ki, baxdığımız cinayət qədər dəyişilməz sabitliklə dövlətin iqtisadi mənafelərini, onun pul-kredit sistemini sarsıtsın, pulun devalvasiyasına gətirib çıxarsın, inflyasiyanı gücləndirsin, dövlətə, onun qurumlarına və ayrı-ayrı şəxslərə ziyan vursun. Buna görə araşdırdığımız cinayətin cinayət qanununda nəzərdə tutulmasında məqsəd həm ölkənin milli valyutasının, xarici valyutanın və müxtəlif qiymətli kağızların cinayətkar qəsdlərdən qorunması, həm də bazar münasibətləri iştirakçılarının mənafelərinin saxta ödəniş vasitələri ilə vurula biləcək ziyandan mühafizə olunmasıdır. Araşdırılan cinayət əməlləri ilə mübarizə həm də beynəlxalq əhəmiyyətə malikdir. Bu, 20 aprel 1929-cu il tarixli Pul nişanlarının saxtalaşdırılması ilə mübarizə üzrə Beynəlxalq Konvensiyada da öz əksini tapmışdır. Buna görə xarici valyuta və ya xarici valyutada ifadə olunmuş qiymətli kağızlar barəsində də həmin əməllərin törədilməsinə görə məsuliyyət müəyyən edilir.

Hər hansı problemin mahiyyətini dərindən dərk etmək, onun haqqında geniş və hərtərəfli məlumat almaq, müasir vəziyyətini və inkişaf meyllərini müəyyənləşdirmək, həlli yollarını proqnozlaşdırmaq üçün bir çox başqa məsələlərlə yanaşı onun inkişaf tarixini də araşdırmaq lazımdır. Bu müddəa tam şəkildə cinayət hüququnun saxta pul və ya qiymətli kağızlar hazırlama və ya satma cinayətləri ilə bağlı probleminə də aiddir. Buna görə saxta pul və ya qiymətli kağızlar hazırlama və ya satma cinayətləri ilə bağlı qanunvericiliyə tarixi mövqedən yanaşmaq, onun inkişaf yolunu nəzərdən keçirmək əhəmiyyət kəsb edir.

Ən əvvəl qeyd edək ki, saxta sikkə və pul hazırlanması ilə bağlı cinayətlər çox qədim tarixə malikdir. Tarixi mənbələrin göstərdiyinə görə saxta sikkə və pul kəsmənin iki min ildən artıq tarixi vardır. Ən qədim zamanlarda mübadilə vasitəsi olaraq sikkənin yaranması ilə onun qəlpinin hazırlanması cinayətləri törədilmişdir. Bu cinayət bütün

dövrlərdə mövcud iqtisadi sistem üçün böyük ictimai təhlükə yaratmışdır. Məşhur tarixi şəxsiyyətlərdən Diogen, Mark Antoni, imperator Neron, «gözəl» və «saxta pul kəsən» təxəllüslü Fransa kralı IV Filipp saxta pul kəsən olmuşlar. Bu şəxslər öz dövlətlərinin iqtisadiyyatını yaxışılaşdırmaq üçün pul sikkələrindəki qiymətli metalların çəkisini azaltmışlar. Napoleon və Hitler isə düşmən dövlətlərin iqtisadiyyatını sarsıtmaq üçün onların pul nişanlarını saxtalaşdırmışlar. Belə ki, Napoleon Vyana bankının saxta bank biletlərinin və Rusiyanın saxta pul nişanlarının hazırlanması üçün Monrujda fabrik yaratmışdı. Faşist Almaniyasında isə Böyük Britaniya, ABŞ və SSRİ-nin saxta pul nişanlarının buraxılması üzrə «Andreas» və «Bernqard» adlandırılan iki əməliyyat hazırlanmışdı.

Araşdırdığımız cinayətlə bağlı qanunvericiliyin inkişaf tarixini izləmək üçün tarixə nəzər salmağımız zəruridir. VII əsrdən başlayaraq Azərbaycanda hüquqi məsələlər, o cümlədən, cinayət-hüquqi münasibətlər dini qanunvericiliklə, şəriət qanunları əsasında həll edilirdi. Rusiya ilə İran arasında bağlanmış 12 oktyabr 1813-cü il tarixli Gülüstan və 10 fevral 1828-ci il tarixli Türkmənçay müqavilələri əsasında müasir Azərbaycan Respublikasının ərazisi Rusiya imperiyasına birləşdirildi. Bundan sonra Azərbaycanda Rusiya imperiyasının dünyəvi qanunları, o cümlədən cinayət qanunları (1845-ci il Cinayət və islah cəzaları Qanunnaməsi, 1903-cü il Cinayət Qanunnaməsi) tətbiq edilməyə başlandı. Rusiya imperiyasının dağılması ilə 1918-ci il mayın 28-də müstəqil Azərbaycan Demokratik Respublikası yarandı, ölkədə Rusiyanın cinayət qanunları cüzi dəyişikliklərlə öz qüvvəsini saxladı. Azərbaycanın öz müstəqil cinayət qanununu hazırlamaq nəzərdə tutulurdu. Ancaq 1920-ci il aprelin 28-də Azərbaycanın bolşeviklər tərəfindən işğal edilməsi, ölkədə sovet hakimiyyətinin qurulması ilə bu ideya beşikdəcə boğuldu. Həmin vaxtdan başlayaraq 1991-ci ildə Azərbaycanın yenidən müstəqillik qazanmasına qədər respublikada sovet cinayət qanunvericiliyi (Azərbaycan SSR-in 1922, 1927 və 1960-cı il Cinayət Məcəllələri) tətbiq edildi. Məhz bütün bunlara görə tədqiq etdiyimiz saxta pul və ya qiymətli kağızlar hazırlama və ya satma cinayətləri ilə bağlı qanunvericiliyin inkişaf tarixini əvvəlcə Rusiya imperiyasının Cinayət Qanunnamələri, sonra isə sovet dövrünün Cinayət Məcəllələri üzrə nəzərdən keçirəcəyik.

Saxta sikkə və pul kəsmə cinayətləri Rusiyanın 1845-ci ildə qəbul edilmiş 1946-cı il mayın 1-dən qüvvəyə minmiş və müəyyən dəyişikliklərlə 1917-ci ilə qədər qüvvədə olmuş Cinayət və islah cəzaları Qanunnaməsinin «Xəzinə əmlakı və gəlirləri əleyhinə edilən cinayətlər» adlanan yeddinci bölməsinin «Sikkə nizamnaməsinin pozulması haqqında» adlanan ikinci fəslində verilmişdi. Göstərilən fəsil iki hissədən ibarət idi: «Sikkələrin saxtalaşdırılması və dəyərinin azaldılması, qanunsuz əridilməsi, ölkəyə gətirilməsi və ölkədən aparılması haqqında» və «Dövlət kredit kağızlarının saxtalaşdırılması haqqında» (5, s. 526). Göründüyü kimi, Qanunnamədə pul saxtalaşdırması predmet üzrə iki yerə bölünürdü: 1) sikkələrin saxtalaşdırılması; 2) dövlət kredit kağızlarının saxtalaşdırılması.

Sikkələrin saxtalaşdırılması ilə bağlı Qanunnamədə aşağıdakı cinayət əməlləri fərqləndirilirdi:

1) sikkələrin saxtalaşdırılması (maddə 556-560);

2) saxta sikkələr buraxılması və ya xaricdən gətirilməsi (maddə 563-564);

3) saxta sikkələri satma (maddə 567);

4) Rusiya sikkələrini əritmə (maddə 561);

5) sikkələrin əsl çəkisini azaltma (maddə 561);

6) sikkələrə yüksək dəyər vermək məqsədilə onların rənginin dəyişdirilməsi (maddə 566);

7) xarici sikkələrin ticarəti ilə məşğulolma (maddə 568).

Qanunnamənin 556-cı maddəsində qızıl, gümüş, platin və mis sikkələrin saxtalaşdırılmasına görə cinayət məsuliyyəti müəyyən edilirdi. Göstərilən cinayəti törətməkdə təqsirli bilinənlər bütün hüquqlardan məhrum edilməklə səkkiz ildən on blədək müddətə katorqa işlərinə məhkum edilirdi (5, s. 529). Sikkələrin saxtalaşdırılması dedikdə, metal pulların dövriyyəyə buraxılması məqsədilə saxtalaşdırılması başa düşülürdü. Baxılan cinayətin obyekti dövlət xəzinəsi, başqa sözlə, dövlətin maliyyə sistemi idi. Pulun buraxılması monopoliyası dövlətin əlində cəmləşdirilmişdi. Buna görə bütün tələblərə tam cavab verən sikkələrin dövlət sikkəxanasından kənarda buraxılması da cinayət sayılırdı. Qanunnamə pul nişanlarının saxtalaşdırılmasını dövlət əmlakı və gəlirlərinə edilən qəsdlərə aid edirdi. A.Lovitskinin yazdığına görə, xəzinə saxta sikkləri və saxta kredit biletlərini qəbul etmirdi. Beləliklə, dövlət xəzinəsi heç bir zərər çəkmirdi. Müəllif həmçinin göstərirdi ki, sikkələrin saxtalaşdırılmasına əsl sikkə əvəzinə saxta sikkə verilmiş ayrı-ayrı şəxslər əleyhinə yönəlmiş əmlak cinayəti kimi baxmaq olmaz. Saxta sikkələr almış şəxs, əlbəttə zərər çəkir. Ancaq baxılan cinayətin ictimai tərəfi daha mühüm əhəmiyyət kəsb edir ki, məhz əsas diqqət buna yetirilməlidir. A.Lovitski nəticə çıxararaq təklif edirdi ki, sikkələrin saxtalaşdırılmasına dövlətin iqtisadi inkişafının möhkəmləndirilməsinin və iqtisadi təhlükəsizliyinin əsas şərtlərindən birinin pozulması kimi baxmaq lazımdır (2, s. 471).

Sikkələrin saxtalaşdırılması cinayətinin predmetini Rusiya sikkəxanasının buraxdığı qızıl, gümüş, platin və mis sikkələr təşkil edirdi.

Baxılan cinayətin obyektiv cəhətini pulların saxtalaşdırılmasına yönəlmiş hərəkət təşkil edirdi. Nəzərdən keçirdiyimiz normada pulların saxtalaşdırılmasının üsulları göstərilmirdi ki, bu da saxta pul nişanlarının və qiymətli kağızların hazırlanmasının müxtəlif variantları ilə bağlı həmin maddənin izahı vaxtı məhkəmənin imtiyaza malik olduğunu göstərirdi.

1845-ci il Cinayət və islah cəzaları Qanunnaməsinin 557-ci maddəsində ondan əvvəlki maddədə sadalann hərəkətlərin xüsusi subyekt tərəfindən törədilməsinə görə cinayət məsuliyyəti nəzərdə tutulurdu. Xüsusi subyekt qismində vəzifəsi sikkə hazırlamaqla yaxud sikkə hazırlanmasına nəzarət etməklə bağlı olan dövlət qulluqçuları çıxış edirdi (5, s. 529). Göstərilən cinayəti törətməkdə təqsirli bilinənlər bütün hüquqlardan məhrum edilməklə on ildən on iki blədək müddətə katorqa işinə məhkum edilirdi. Dağ, xəzinə və ya xüsusi zavodlardan oğurlanmış qızıl, platin və ya gümüşdən saxta sikkələr, onlar əsl sikkənin xüsusiyyətlərinə tam cavab versələr belə, hazırlamaqda təqsirli bilinənlər də həmin cəzaya məhkum edilirdilər.

Qanunnamənin 558-ci maddəsi saxta xarici sikkələr, onlar əsl dəyərə malik olsalar da, hazırlamağa görə məsuliyyət müəyyən edirdi. Bu cinayəti törətməkdə təqsirli olanlar bütün hüquqlardan məhrum

edilməklə dörd ildən altı illədək müddətə katorqa işlərinə məhkum edilirdi (5, s. 529). Xarici sikkələrə ödəniş vasitəsi kimi deyil, könüllü müqavilə əsasında qəbul edilən əmtəə kimi baxılırdı. Beləliklə, xarici sikkələri satma adi dələduzluq idi. Belə ki, həmin sikkələr dövriyyəyə qoşularkən nə xəzinə, nə də ictimai kredit zərər çəkmirdi (2, s. 471). Bu normanın sanksiyasında göstərilən cəza Rusiya sikkələrini saxtalaşdırmağa görə müəyyən edilən sanksiyada göstərilən cəzadan yüngül idi. Bu, Qanunnamənin ilk növbədə Rusiya imperiyasının maraqlarını, o cümlədən, iqtisadi təhlükəsizliyini mühafizə altına almasını göstərirdi ki, bu da öz əksini yuxarıda göstərilən normaların sanksiyalarında tapmışdı.

Qanunnamənin 559-cu maddəsi saxta sikkələr hazırlamaq üçün bilərəkdən ştampel, forma və digər vasitələr əldə edən və ya alan şəxslər üçün də 556, 558-ci maddələrdə nəzərdə tutulan cəzalar müəyyən edirdi (5, s. 530). Bu norma saxta sikkələr hazırlanmasını deyil, saxta sikkələr hazırlamaq üçün nəzərdə tutulan ştampel, forma və digər vasitələrin əldə edilməsini və ya alınmasını başa çatmış cinayət hesab edirdi. Bu cinayətin törədilməsində iştirak etmiş şəxs, özünün cinayətkar yoldaşları haqqında dövlətə xəbər çatdırardısa və bununla cinayətin qarşısını almağa imkan verərdisə, o hər cür cəzadan azad edilir və onun adı gizli saxlanılırdı. Cəzadan azad etmə Qanunnamənin Ümumi hissəsinin 153-cü maddəsinin 1-ci bəndinə uyğun olaraq yaranırdı. Belə güzəştin səbəbi dövlətin saxta sikkələr hazırlayan cinayətkar qrupları dağıtmağa çalışması idi (2, s. 471). Əgər polis cinayətkar qrup haqqında məlumata malik olurdusa, cinayətkarlardan birinin onun haqqında məlumat verməsinin heç bir əhəmiyyəti yox idi. Cinayətkar qrupun iştirakçılarından biri ələ keçdikdə və yalnız bu zaman qrup haqqında məlumat verdikdə də güzəşt tətbiq edilmirdi.

Sikkələrin saxta olduğunu bilən, ancaq həmin cinayətin törədilməsində iştirak etməyən və cinayət barədə hökumətə xəbər verməyən şəxslər Qanunnamənin 560-cı maddəsi ilə cinayət məsuliyyətinə cəlb edilirdilər. Belə hərəkətə görə cəza olaraq yaşamaq üçün Sibirə sürgün nəzərdə tutulurdu. Dövlət saxta sikkələrin hazırlanması cinayətini xəbər verməməyə görə belə ağır cəzanı Qanunnaməyə xüsusi olaraq daxil etməklə, cinayətdən xəbəri olan vətəndaşları cəza hədəsi altında cinayət barəsində polisə xəbər verməyə məcbur etməyə çalışırdı.

Qanunnamənin 561-ci maddəsində Rusiya sikkələrini əritməyə görə təqsirli olan şəxslərə bütün hüquqlardan məhrum edilməklə Sibirin uzaq yerlərinə yaşamaq üçün sürgün cəzası müəyyən edilirdi. 562-ci maddəyə görə təqsirləndirilənlərdə aşkar edilmiş bütün saxta sikkələr və saxtalaşdırma üçün istifadə edilən predmetlər müsadirə edilir və dövlət xəzinədarlıq departamentinə göndərilirdi (1, s. 357). Rusiya sikkələrini xaricdən ölkəyə gətirməyə və dövriyyəyə buraxmağa görə şəxs (maddə 563) Qanunnamənin 556-cı maddəsi ilə məsuliyyət daşıyır və gətirdiyi bütün sikkələr müsadirə edilirdi. Qanunnamənin 564-cü maddəsi xarici sikkələri buraxmağa və ya ölkəyə gətirməyə görə məsuliyyət müəyyən edirdi. Belə əməli törədənlər cinayətin predmeti olan sikkələrin müsadirə edilməsi, bütün hüquqlardan məhrumetmə və dörd ildən altı ilədək müddətə katorqa işlərinə məhkum edilirdilər. Sikkələrdən kəsib götürməkdə və onun çəkisini hər hansı başqa üsulla azaltmaqda təqsirli olan şəxslər bütün xüsusi, şəxsi hüquqlarından və əmlakından məhrumetmə və yaşamaq üçün Sibirə sürgünetmə cəzasına məruz

qalırdılar (maddə 565). Bu maddə, həmçinin, sikkələrin çəkisinin azaldılması (kəsmə, əritmə və s.) nəticəsində əldə edilmiş metal hissələrini almağa görə məsuliyyət müəyyən edirdi. Bu cinayəti törətməkdə təqsirli bilinənlər bəzi xüsusi hüquqlardan və imtiyazlardan məhrumetmə, həmçinin bir il dörd aydan iki ilə qədər müddətə həbs cəzasına məhkum edilirdilər (1, s. 357). Qanunnamənin 566-cı maddəsində göstərilirdi ki, hər hansı sikkəyə böyük dəyərə malik görkəm vermək məqsədilə onun rəngini dəyişməkdə təqsirli olan şəxslər bütün xüsusi, şəxsi hüquqlardan və imtiyazlardan məhrum edilir və islah həbs bölmələrində yerləşdirilir (3, s. 503).

Qanunnamənin 567-ci maddəsində saxta pul kəsənləri və ya saxta sikkələri ölkəyə gətirməklə məşğul olanları tanıyan şəxslərin saxta sikkələri dövriyyəyə buraxmağa görə məsuliyyəti müəyyən edilirdi. Göstərilən əməli törətməkdə təqsirli olan şəxs cinayəti gizlədən şəxs qismində köməkçi kimi məsuliyyətə cəlb edilirdi. Bu maddədə göstərilirdi ki, təsadüfən saxta sikkəni alan və onun saxta olduğunu bilən, onu polisə təqdim etməyib əsl sikkə kimi başqasına verən şəxs dələduzluğa görə məsuliyyətə cəlb edilir və cəzalandırılır. Bu halda saxtakarlıqda iştirakçılıq yoxdur, ancaq təqsirkar başqa şəxsə şüurlu surətdə əsl sikkə əvəzinə saxta sikkə verərək öz hərəkətləri ilə onun əmlak hüquqlarını pozur. Belə hərəkətlər isə aldatmadır, yəni dələduzluqdur (2, s. 471).

1845-ci il Cinayət və islah cəzaları Qanunnaməsinin 1866 və 1885-ci il redaksiyalarının 556-567-ci maddələrində baxılan tarixi dövrdə cəza hədəsi altında cinayət qanunvericiliyinin qadağan etdiyi saxta sikkə hazırlama və satmanın anlayışı, həmin əməlin üsul və formaları verilirdi.

Rusiyanın 1845-ci il Cinayət və islah cəzaları Qanunnaməsinin (1866 və 1885-ci il redaksiyalarında) yeddinci bölməsinin ikinci fəslinin «Dövlət kredit kağızlarının saxtalaşdırılması haqqında» adlanan ikinci bölməsində dövlət kredit kağızlarının saxtalaşdırılmasına görə cinayət məsuliyyəti nəzərdə tutan bir sıra maddələr mövcud idi. Həmin maddələri üç yerə bölmək olardı:

1) kredit kağızlarının saxtalaşdırılması;

2) saxta kredit kağızlarını satma;

3) saxta kredit kağızlarınıın xaricdən gətirilməsi.

Qanunnamənin «Dövlət kredit kağızlarının saxtalaşdırılması haqqında» bölməsinin 571-ci maddəsi dövlət kredit biletlərini saxtalaşdırmağa görə məsuliyyət müəyyən edirdi (5, s. 532).

Baxılan cinayətin obyektini dövlətin maliyyə sistemi təşkil edirdi.

Cinayətin predmeti olaraq dövlət kredit biletləri, dövlət xəzinə biletləri, kredit qurumlarının ümumi dövriyyədə pul dəyərinə malik biletləri çıxış edirdi.

Cinayətin obyektiv cəhəti özündə saxtalaşdırmanın bir neçə üsulunu birləşdirirdi:

1) mexaniki vasitələrlə kağızların və rəsmlərin saxtalaşdırılması, bank biletlərinin nominal dəyərinin artırılması. Bu əməli törətməyə görə məsuliyyət Qanunnamənin 556-cı maddəsində (Rusiya sikkəsini saxtalaşdırmağa görə) olduğu kimi müəyyən edilirdi;

2) adi kağızda rəsm çəkməklə yuxarıda sadalanan kağızların saxtalaşdırılması, kredit biletləri üçün nəzərdə tutulmuş blankların oğurlanması (Qanunnamənin 571-ci maddəsinin 2-ci hissəsi). Bu halda məsuliyyət yalnız dövlət kredit biletləri üçün vərəq-blankların

oğurlanmasına görə yarana bilərdi, şəxsi banкlardan blanк-biletlərin oğurlanmasına isə şamil edilə bilməzdi. 571-ci maddənin 2-ci hissəsi blanкların oğurlanması müstəqil cinayət təşкil etdiyi hallarda tətbiq edilə bilərdi. Blanкların oğurlanması saxtalaşdırmanın törədilməsi üçün yalnız vasitə olduqda, təqsirкar daha ağır cinayət olan saxtalaşdırmaya görə məsuliyyət daşıyırdı;

3) кredit biletlərinə daha yüкsəк dəyər verməк üçün onların rənginin dəyişdirilməsi;

4) dövlət кredit кağızlarının nümunəvi vərəqlərinin oğurlanması və dəyişiкliк etməкlə dövriyyəyə buraxılması.

Qanunnamənin 571-ci maddəsi aкt və öhdəliкlərdə yalnız saxtalaşdırmanın xüsusi növünü nəzərdə tütürdü. Buna görə həmin maddə iкi halda tətbiq edilə bilərdi: birinci, sözün dar mənasında saxta və ya qəlp biletləri hazırlamağa görə; iкinci, əsl biletlərin dəyərini istənilən üsulla yüкsəltməк yolu ilə saxtalaşdırmağa görə. Saxtalaşdırmanın bütün digər növləri baxılan normanın təsiri altına düşmürdü. Dövlət кredit кağızlarını saxtalaşdırmağa görə cəza müəyyən edərкən qanun saxtalaşdırmanın кeyfiyyətini və saxta кredit biletlərinin buraxılması nəticəsində dövlətin pul sistemi üçün ictimai təhlüкəliliк dərəcəsini nəzərə alırdı. Saxtalaşdırma üsulu böyüк əhəmiyyətə maliк idi. Belə кi, yaxşı hazırlanmış əsginasın uzun müddət dövriyyədə olması ehtimalı var idi (3, s. 504). Buna görə təqsirкar кredit biletində rəsmi mexaniкi üsulla (litoqrafiya və s.), hətta adi кağızda çəкdiyi halda Qanunnamənin 571-ci maddəsinin 1-ci hissəsi ilə cəzalandırılırdı.

Kredit biletlərinin saxtalaşdırılması biletlərin hazırlandığı andan başa çatmış sayılırdı. Qanun cinayətin başa çatması üçün saxta biletlərin dövriyyəyə buraxılmasını tələb etmirdi.

Qanunnamənin 571-ci maddəsində göstərilən cinayətin dövlət кredit кağızlarını hazırlayan və ya onların hazırlanmasına nəzarəti həyata кeçirən dövlət qulluqçusu tərəfindən törədilməsinə görə məsuliyyət nəzərdə tutulur və həmin əmələ görə 571-ci maddəyə uyğun, ancaq bir pillə yüкsəк cəza müəyyən edilirdi (5, s. 534).

Qanunnamənin 573-cü maddəsi müəyyən edirdi кi, dövlət кredit biletlərini, dövlət xəzinə biletlərini və ümumi dövriyyədə pul dəyərinə maliк digər кredit biletlərini saxtalaşdırmaqda hər hansı iştiraкı olan (alma, satma, cinayətin vasitələrini vermə və s.) şəxslər 571-ci maddə üzrə cəzalandırılır. Kredit biletlərini saxtalaşdırmaq üçün öz evində otaq verilməsi cinayətin törədilməsi üçün vasitə verilməsi sayılır və belə şəxs 573-cü maddə üzrə məsuliyyətə cəlb edilirdi. Saxta кredit biletlərinin hazırlanması üçün vasitələri satma, həmin vasitələrdən istifadə edilən saxtalaşdırma кimi cəzalandırılırdı. Beləliкlə, biletləri mexaniкi vasitələrlə saxtalaşdırmaq üçün vasitələrin satılması Qanunnamənin 571-ci maddəsinin 1-ci hissəsi ilə cəzalandırılırdı. Əsginas çap etməк üçün кredit biletinin forması əкs edilmiş metal кlişenin əldə edilməsi də Qanunnamənin 573-cü maddəsinin təsiri altına düşürdü. Təqsirкarlar göstərilən vasitələrdən istifadə etməyə imкan tapmadığı halda da məsuliyyət daşıyırdılar, çünкi onlardan istifadə edilməsi müstəqil cinayət tərкibini yaradırdı. Qanunnamənin 573-cü maddəsi üzrə məsuliyyət saxtalaşdırmanın özünün cəzalanan olmasından asılı olduğundan, saxta əsginasları mexaniкi vasitələrlə hazırlamaq üçün alət və vasitələrin satılması Qanunnamənin 571-ci maddəsinin 1-ci hissəsi ilə məsuliyyət doğururdu. 573-cü maddədə deyilirdi кi, cinayətin bütün iştiraкçıları və köməкçiləri saxta pul nişanlarını hazırlayan şəxs

кimi cəzalandırılır. Yuxarıda deyilənlərdən belə nəticə çıxarmaq olar кi, cinayətdə iştiraкçılığın dərəcəsi cəza təyin edilməsinə heç bir təsir göstərmirdi. Əgər məhкəmə конкret sayda saxta кredit biletlərinin hazırlandığını sübut edərdisə və təqsirləndirilən saxtalaşdırılan biletlərin heç də hamısının özü tərəfindən hazırlanmadığına dəlil gətirə bilməzdisə, məhкəmə təqsirləndiriləni sübut edilən sayda saxta кredit biletləri hazırlamaqda təqsirli saymaq hüququna maliк idi. Cinayətin iştiraкçıları haqqında məlumat verən və bununla cinayəti aşкar etməyə və qarşısını almağa imкan verən cinayət iştiraкçısı cəzadan azad edilir və onun adı gizli saxlanılırdı. Qanunnamənin 572-ci maddəsində кredit кağızlarının, dövlət кredit biletlərinin, dövlət xəzinə biletlərinin, кredit qurumlarının ümumi dövriyyədə pul dəyərinə maliк digər biletlərin dövlət qulluqçuları yaxud onların hazırlanmasına nəzarət edən şəxslər tərəfindən saxtalaşdırılmasına görə məsuliyyət nəzərdə tutulurdu.

Qanunnamənin 574-cü maddəsində dövlət xəzinə biletlərinin və digər dövlət кredit biletlərinin saxtalaşdırılmasından və ya onların dövriyyəyə buraxılmasından xəbəri olan, ancaq həmin cinayətdə hər hansı iştiraкı olmayan şəxslərin məsuliyyəti müəyyən edilirdi. Bu barədə höкumətə xəbər verməyən şəxs bütün xüsusi, şəxsi və layiq görülmüş hüquq və imtiyazlardan məhrumetmə, habelə yaşamaq üçün Sibirə sürgün cəzasına məhкum edilirdi. Saxta biletləri satmağa cəhddə təqsirləndirilən və öz iradəsi ilə həmin cinayəti törətməкdən imtina etmiş şəxs Qanunnamənin 113-cü maddəsinə görə cinayətə cəhdə görə cəzalandırılmırdı. Ancaq həmin şəxs pul saxtalaşdırılması cinayətindən xəbərdar olmağa və xəbər verməməyə görə təqsirкar sayıla bilərdi, yəni onun əməli Qanunnamənin 574-cü maddəsinin təsiri altına düşürdü. Qanunnamənin 575-ci maddəsinə görə 574-cü maddədə göstərilən tapılmış saxta dövlət кredit biletləri, habelə həmin cinayət törədilərкən istifadə edilən alət və vasitələr müsadirə və məhv edilirdi. Göstərilən maddə götürülən əşyaların məhv edilməsinin son müddətini müəyyən etmirdi. Aydındır кi, əşyaların məhvi yalnız məhкəmə araşdırması başa çatdıqdan sonra tətbiq edilirdi, çünкi həmin əşyalar maddi sübutlar qismində istifadə edilirdi. Həm də hazırlanmış saxta əsginasların кeyfiyyəti, cinayətin alət və vasitələri cəza təyin edilərкən nəzərə alınırdı.

Qanunnamənin 571-ci maddəsində göstərilmiş saxta xəzinə biletlərini və başqa biletləri dövriyyəyə buraxan, saxta biletləri hazırlayanları tanıyan şəxslər, yaxud həmin pulların daşınması ilə məşğul olan şəxslər 573-cü maddədə göstərilən qayda əsasında saxtalaşdırmanın көməкçiləri кimi 576-cı maddəyə uyğun olaraq cəzalandırılırdı. Həmçinin, saxta dövlət xəzinə biletlərini, кredit və ya sair dövlət кredit biletlərini təsadüfən alan və həmin biletlərin saxta olmasına əmin olan, ancaq onları hüquq mühafizə orqanlarına təqdim etməyib, başqa şəxsə əsl bilet adı ilə satan şəxs dələduzluğa görə məsuliyyət nəzərdə tutan maddə ilə cəzalandırılırdı.

Xarici pulların və biletlərin saxtalaşdırılmasında, saxtalarının xaricdən gətirilməsi və dövriyyəyə buraxılmasında təqsirli olan şəxslər Qanunnamənin 577-ci maddəsi ilə cinayət məsuliyyətinə məruz qalırdı.

Rusiyanın 1845-ci il Cinayət və islah cəzaları Qanunnaməsinin «Xəzinə əmlaкı və gəlirləri əleyhinə edilən cinayətlər» adlanan yeddinci bölməsinin «Siккə nizamnaməsinin pozulması haqqında» adlanan iкinci fəslinin iкinci bölməsinin («Dövlət кredit кağızlarının saxtalaşdırılması») normaları birinci bölməsinin («Siккələrin

saxtalaşdırılması və dəyərinin azaldılması, qanunsuz əridilməsi, ölkəyə gətirilməsi və ölkədən aparılması haqqında») normalarının təkrarı idi. Fərq yalnız cinayətin predmetində və törədilmiş əmələ görə nəzərdə tutulmuş cəzada idi. İkinci bölmədə cinayətin predmeti kimi dövlət kredit biletləri, dövlət xəzinə biletləri və ümumi dövriyyədə pul dəyərinə malik digər kredit biletləri, habelə xarici pullar və biletlər çıxış edirdi. Birinci bölmədə isə cinayətin predmetini Rusiyada zərb edilmiş (kəsilmiş) qızıl, gümüş, platin və mis sikkələr, habelə xarici sikkələr təşkil edirdi.

1845-ci il Cinayət və islah cəzaları Qanunnamə Rusiya cinayət qanunvericiliyi tarixdə ilk dəfə saxta qiymətli kağızları hazırlama və satmağa görə cinayət məsuliyyəti müəyyən edirdi, yəni cinayət qanunvericiliyi qiymətli kağızları mühafizə altına alırdı. Qanunnaməyə uyğun olaraq sikkə və pul saxtalaşdırılmasına görə həm ümumi, həm də xüsusi subyekt cinayət məsuliyyətinə cəlb edilirdi. Xüsusi subyekt qismində fəaliyyəti sikkənin və ya pulun hazırlanması və ya hazırlanmasına nəzarətlə bağlı olan dövlət qulluqçuları çıxış edirdi.

1845-ci il Cinayət və islah cəzaları Qanunnaməsində baxılan cinayətin obyekti olaraq dövlətin maliyyə sistemi çıxış edirdi. Qanunnamədə müxtəlif cinayətlərə görə məsuliyyət müəyyən edən bir sıra normalar var idi. Belə ki, Qanunnamənin 1149-cu maddəsində dövlət banklarının və onun kontorlarının, ictimai himayə idarələrinin və ümumiyyətlə, bütün dövlət kredit qurumlarının borclarının ödənilməsi komissiyalarının biletlərini saxtalaşdırmağa görə cinayət məsuliyyəti nəzərdə tutulurdu. Mahiyyət etibarı ilə adı çəkilən biletlər dövlətin borc öhdəlikləri sayılırdı və təqdim edilərkən ödənilməli idi, yəni dövlət qiymətli kağızlarının növlərindən biri idi (5, s. 709).

Qanunnamənin 1150-ci maddəsində ictimai və şəxsi bankların biletlərini saxtalaşdırmağa görə cinayət məsuliyyəti nəzərdə tutulurdu, ancaq bu halda cəza bir qədər yüngül idi. Beləliklə, qanunverici ilk növbədə dövlətin maliyyə sistemini mühafizə altına alırdı.

Qanunnamənin 1160-ci maddəsində vekseli saxtalaşdırmağa görə cinayət məsuliyyəti nəzərdə tutulurdu.

Qanunnamədə ticarət cəmiyyəti, birliyi və ya şirkətinin səhmlərini saxtalaşdırmağa görə cinayət məsuliyyəti xüsusi olaraq nəzərdə tutulmuşdu. Belə ki, 1194-cü maddəyə uyğun olaraq göstərilən cinayəti törətməkdə təqsirli olan şəxs bütün xüsusi, şəxsi və layiq görüldüyü hüquq və imtiyazlardan məhrumetmə və beş ildən altı ilədək müddətə islah həbs bölmələrində saxlanılma cəzasına məhkum edilirdi. Şəxs əsl səhmi saxtasını düzəltmək üçün qravüra ustasına verdiyi və sifarişin tam yerinə yetirildiyi halda, əməl cinayətə cəhd sayılır və məsuliyyət 1194-cü maddə üzrə yaranırdı.

1845-ci il Cinayət və islah cəzaları Qanunnaməsinin tədqiq etdiyimiz cinayətlə bağlı maddələrini araşdırmaqla belə bir nəticəyə gəlirik ki, məhz həmin Qanunnamənin sayəsində dövlətin maliyyə-kredit sisteminin mühafizəsində irəliyə doğru böyük addım atılmışdı. Qanunnamə təkcə dövlət maliyyə-kredit qurumlarının maraqlarını (sikkələr, dövlət kredit biletləri, dövlət xəzinə biletləri, dövriyyədə pul dəyərinə malik olan sair kredit biletləri) deyil, həmçinin, xüsusi (qeyri-dövlət) maliyyə-kredit qurumlarının maraqlarını da mühafizə altına alırdı. 1845-ci il Qanunnaməsində saxta pul hazırlanmasının əsas əlamət və prinsipləri elə yüksək səviyyədə işlənib təsbit edilmişdi ki, sonrakı cinayət qanunvericiliyi aktları hazırlanarkən onlardan əsas kimi istifadə

edilmişdi. Sovet hakimiyyəti qurulduqdan sonra bolşeviklər sözdə çar dövrünün bütün qanunlarından, o cümlədən cinayət qanunlarından imtina etdiklərini elan etsələr də, işdə ilk sovet Cinayət Məcəllələrinin hazırlanmasında 1845-ci il Cinayət və islah cəzaları Qanunnaməsinin əsas prinsiplərindən (o cümlədən saxta pul hazırlama cinayətləri ilə bağlı) istifadə edirdilər. 1845-ci il Qanunnaməsinin saxta pul hazırlama cinayətlərinə aid müddəalarından hətta müasir cinayət qanunvericiliyinin hazırlanmasında istifadə edilir.

N.S.Taqantsev, İ.Y.Foynitski və N.A.Nekludov kimi böyük kriminalist alimlərin bilavasitə iştirakı ilə hazırlanmış, hüquq institutlarının dərindən işlənməsinə və qanunvericilik texnikasının keyfiyyətinə görə öz dövrünün ən yaxşı cinayət qanunları səviyyəsində dayanan Rusiyanın 22 mart 1903-cü ildə qəbul edilmiş Cinayət Qanunnaməsi 37 fəsildən və 687 maddədən ibarət idi. Ancaq 1917-ci ilin oktyabrına qədər bu Qanunnamənin cəmi 158 maddəsi – «Cinayət əməlləri və ümumi cəzalar haqqında» adlı birinci fəsli (72 maddə), habelə dini, dövləti və vəzifə cinayətləri haqqında əsas maddələr qüvvəyə mindi.

1903-cü il Cinayət Qanunnaməsinin iyirminci fəsli («Sikkə, qiymətli kağızlar və nişanların saxtalaşdırılması haqqında») araşdırdığımız cinayətə həsr edilmişdi. Həmin fəsildə baxılan cinayətin obyektini dövlətin maliyyə sistemi təşkil edirdi.

Qanunnamə baxılan cinayətin predmeti kimi aşağıdakıları nəzərdə tuturdu:

1) Rusiya sikkəsi. Belə sikkə olaraq metaldan hazırlanmış, dövlətin nominal qiymət qoyduğu və ticarət işlərində ödəniş vasitəsi kimi istifadə edilən məmulat başa düşülürdü. Sikkənin zahiri əlaməti onun zərb edilməsidir, yəni konkret forma, çəki və ölçüyə malik metal parçası üzərində imperatorun və ya qanunla müəyyən edilmiş işarənin təsvir edilməsidir. Buna görə metal parçasından zahiri görünüşünə görə dövlət metal sikkəsinə oxşayan sikkənin hazırlanması metal pulların saxtalaşdırılması olacaqdır. Pulu əvəz edən metal jetonların və ya sair müvafiq nişanların (məsələn, restoranlarda, bufetlərdə istifadə edilən jetonlar) saxtalaşdırılmasına, əlbəttə, pul saxtalaşdırılması kimi baxmaq olmaz. Belə ki, burada cinayətin predmetinin fərqli olması aşkar görünür;

2) Xarici sikkə. 1903-cü il Cinayət Qanunnaməsi xarici metal pulların və kredit nişanlarının saxtalaşdırılmasına görə məsuliyyət nəzərdə tuturdu. Bununla cinayət hüququ çərçivəsində beynəlxalq əməkdaşlıq sahəsində irəliyə addım atıldı. Xarici metal pullar da Rusiya metal pulları kimi eyni əlamətlərə malik olmalı idi. Onlar metaldan hazırlanmalı, müəyyən nominal dəyərə malik olmalı, habelə həmin məmulatın məlum ölkədə pul vasitəsi kimi istifadə edildiyini göstərən səciyyəvi əlamətlərə malik olmalı idi;

3) dövlət kredit biletləri;

4) Rusiya dövlət faiz kağızları, onun kupon və ya talonları, yaxud sair qiymətli dövlət kağızları.

Qiymətli və kredit kağızları sırasına həm dövlət tərəfindən, həm də hökumətin icazəsi ilə digər qurumlar tərəfindən buraxılan kağızlar aid edilirdi.

Cinayətin obyektiv cəhətini saxta pul və ya kağızları hazırlamağa və ya satmağa yönəlmiş hərəkətlər təşkil edirdi.

1903-cü il Cinayət Qanunnaməsi saxtalaşdırmanın üsullarını fərqləndirirdi:

a) xeyli miqdarda saxta pul və ya qiymətli kağız buraxmaq təhlükəsi yaradan üsulla saxtalaşdırma;

b) xeyli miqdarda saxta pul və ya qiymətli kağız buraxmaq təhlükəsi yaratmayan üsulla saxtalaşdırma.

Baxılan cinayətin başa çatma anının müəyyən edilməsində Rusiya qanunvericiləri Avropa hüquqşünaslarının yolu ilə gedirdilər. Onlar həmin cinayətin başa çatma anı olaraq bir saxta pul nişanının buraxılması anını hesab edirdilər. Sonradan saxtalaşdırılan pul nişanlarının sayı cəza təyin edilməsi vaxtı rol oynaya bilərdi. Saxta pulu hazırlama (satma) vaxtı cinayətkarların izlədiyi nəticə baxılan cinayət tərkibi üçün zəruri şərt deyildi. Bu şərt cəzanın növü və miqdarı müəyyən edilərkən nəzərə alınırdı. Qanunvericinin belə mövqeyi saxta pul hazırlanmasının dövlətin maraqlarına qəsd edən ağır və təhlükəli cinayət olması ilə, həmçinin saxta pulların və qiymətli kağızların satılmasında cinayətkarların iştirakını sübut edən dəlillərin əldə edilməsi ilə bağlı hüquq mühafizə orqanlarında tez-tez yaranan çətinliklərlə bağlı idi.

Baxılan cinayəti törətməyə cəhd cəzalanan idi.

Saxtalaşdırmanın subyekti həm Rusiya imperiyasının, həm də xarici dövlətlərin cinayət məsuliyyəti yaşına çatmış vətəndaşı ola bilərdi. 1903-cü il Cinayət Qanunnaməsində 1845-ci il Cinayət və islah cəzaları Qanunnaməsindən fərqli olaraq xüsusi subyekt anlayışı təsbit edilməmişdi. Bu, xüsusi subyekt amilinin məhkəmə tərəfindən cəzanın seçimi və təyini zamanı nəzərə alına bilməsi və buna görə onun qanunda göstərilməsinə ehtiyac olmaması ilə əsaslandırılırdı.

1903-cü il Cinayət Qanunnaməsinə görə təkcə saxta pul və qiymətli kağızlar hazırlayan şəxslər deyil, başqa funksiyaları (saxtalaşdırma vasitələrinin, alətlərinin əldə edilməsi, saxta pulların və ya qiymətli kağızların satılması və s.) yerinə yetirən şəxslər də cinayət məsuliyyətinə cəlb edilirdi. Bununla belə, göstərilən növ cinayət əməlinə iştirakçılığın ümumi qaydaları tətbiq edilirdi. Cinayət haqqında xəbər verməmənin cəzalanan olması haqqında ümumi maddədə deyilirdi ki, hazırlanan və ya həyata keçirilən saxtalaşdırma haqqında xəbər verməmə cinayət sayılır.

1903-cü il Cinayət Qanunnaməsinin 430-cu maddəsində saxta pulları və qiymətli kağızları satan şəxslər saxta pul kəsmə cinayətini törədən iştirakçılar qrupundan birbaşa fərqləndirilirdi. Əgər baxılan cinayətin başa çatma anı olaraq saxta pulun və ya qiymətli kağızın satılma anı hesab edilsəydi, cinayətin bilavasitə icraçısı saxta pulu və ya qiymətli kağızı satan şəxs olardı, onu hazırlayana isə baxılan cinayətin köməkçisi kimi baxılardı.

Qanunnamə saxta pulu və ya qiymətli kağızı satmağa saxtalaşdırmada iştirkçılıq kimi baxmırdı. Buna görə cinayətkar fəaliyyətin baxılan növü müstəqil cinayət tərkibi sayılırdı. Saxta pullar və qiymətli kağızlar satılmadan ictimai təhlükə doğurmur, buna görə onları satanların məsuliyyəti hazırlayanların cinayətkar fəaliyyətinə bərabər tutulurdu. Satma dedikdə, saxta pulu və qiymətli kağızı dövriyyəyə daxil edən istənilən fəaliyyət (satma, mübadilə etmə, xırdalama və s.) nəzərdə tutulurdu. Satmanın başa çatma anı olaraq saxta pulun və qiymətli kağızın başqa şəxsə verilməsi və həmin şəxsin

onun üzərində tam sərəncam vermək hüququ əldə etməsi anı hesab edilirdi.

1903-cü il Cinayət Qanunnaməsinin 428-ci maddəsində 427-ci maddədə göstərilməyən aşağıdakı predmetləri saxtalaşdırmağa görə məsuliyyət müəyyən edilirdi: Rusiyanın ictimai və ya şəxsi kredit qurumlarının biletləri; ictimai və ya şəxsi kredit qurumlarının xarici biletləri; müəyyən edilmiş qaydada bilet, səhm, istiqpaz buraxmaq səlahiyyəti verilmiş cəmiyyətlərin və ya birliklərin səhmləri və ya istiqrazları, dövriyyəyə buraxılma icazəsi olan faiz və ya qiymətli kağızlar, həmçinin onların kuponları və ya talonları.

Qanunnamənin 429-cu maddəsində təsbit edilirdi ki, 427, 428-ci maddələrdə sadalanan sikkə, bilet, kağız, kupon və ya talonlar üzərində, onlara yüksək dəyər verən saxtalaşdırma aparmaqda və ya həmin bilet, kağız və ya talon üzərində ödəniş nişanını pozmaqda təqsirli olan şəxslər saxtalaşdırmada olduğu kimi cəzalandırılır.

Görkəmli kriminalist-alim S.V.Poznışev pul saxtalaşdırılmasına belə anlayış verirdi: «Pul nişanlarının saxtalaşdırılması zahiri görkəminə görə dövlət pul nişanlarına və ya ictimai və ya şəxsi kredit və ya sair qurumların ona bərabər tutulan kağızlarına oxşayan maddi predmetlərin, onların əsli kimi dövriyyəyə buraxılması məqsədilə qəsdən, qanunazidd hazırlanması başa düşülür» (3, s. 497).

1903-cü il Cinayət Qanunnaməsinin 431-ci maddəsində saxta pullar və qiymətli kağızlar buraxmaq və satmaq üçün cinayətkar birlik və təşkilat yaratmağa görə məsuliyyət müəyyən edilirdi.

Rusiya imperiyası dağıldıqdan və 1918-ci il mayın 28-də Azərbaycan Demokratik Respublikası yaradıldıqdan sonra da ölkədə Rusiyanın cinayət qanunları cüzi dəyişikliklər edilməklə qüvvədə qaldı. Respublikanın öz cinayət qanunlarının hazırlanması istiqamətində işlər görülməsi nəzərdə tutulsa da, 1920-ci il aprelin 28-də bolşevik işğalı onun həyata keçirilməsinə imkan vermədi.

1920-ci il aprelin 28-də sovet hakimiyyətinin qurulması ilə Azərbaycanda cinayət qanunvericiliyinin, o cümlədən saxta pul və ya qiymətli kağızlar hazırlama və ya satma cinayətləri haqqında qanunvericiliyin inkişafının yeni, sovet dövrü başlandı. 12 may 1920-ci il tarixli «Xalq məhkəməsi haqqında» dekretlə və «Burjua məhkəmə orqanlarının ləğv edilməsi və xalq məhkəmələrinin və istintaq komissiyalarının yaradılması haqqında» qərarla Azərbaycan SSR-in cinayət hüququnun əsası qoyuldu. Bu aktlarla həmin vaxta qədər mövcud olan bütün cinayət qanunvericiliyi və məhkəmə sistemi ləğv edildi, devrilmiş hökumətin qanunlarının tətbiq edilməsi qəti qadağan olundu və beləliklə, yeni sosialist cinayət hüququnun yaradılması prosesi başlandı. «Xalq məhkəməsi haqqında» dekretin 4-cü maddəsində deyilirdi ki, «xalq məhkəmələri öz əraziləri hüdudunda bütün cinayətlər və xətalar haqqında işlərə, əmlak, şəxsi hüquq və maraqlar barədə mübahisələrə baxmağa səlahiyyətlidir» (4).

Azərbaycan SSR-in ilk Cinayət Məcəlləsi qəbul edilənə qədər respublikada cinayət hüququnun normaları ən müxtəlif orqanlar tərəfindən verilən müvafiq dekretlər, qərarlar, təlimatlar, əmrlər, müraciətlər və s. vasitəsilə yaradılırdı. Həmçinin, bu iş xalq məhkəmələrinin, inqilabi tribunalların, məhkəmə-inzibati vəzifələri həyata keçirən digər orqanların, o cümlədən fövqəladə komissiyaların praktik fəaliyyəti ilə həyata keçirilirdi. Həmin dövrdə bu və ya digər əməllərin cəzalandırılan olmasını müəyyən edən dekretlər olduqca az idi,

mövcud dekretlərdə isə müəyyən edilən cəzalar bir qayda olaraq qeyri-müəyyən xarakter daşıyırdı, onlarda nə konkret cəza növü, nə müddəti və nə də tətbiq qaydası göstərilmirdi. Buna görə törədilən əməllərin cinayət hesab edilməsi, onları törədən şəxslərə müvafiq cəza növü seçilməsi (ölüm cəzasından başqa, bu cəza növünü tətbiq etmək inqilabi tribunalların səlahiyyətinə daxil idi) və cəza müddəti müəyyən edilməsi məsələsinin həlli bütünlüklə məhkəmələrin səlahiyyətinə verilirdi. Məhkəmələr isə öz fəaliyyətində partiyanın və hökumətin siyasətini, inqilabi hüquqi düşüncəni və vicdanı rəhbər tuturdular. Beləliklə, məhkəmələr cəza növünün və müddətinin seçilməsində və müəyyən edilməsində qeyri-məhdud hüquqlara malik idilər və onlar bir qayda olaraq, «yazılmamış cinayət qanunları» əsasında fəaliyyət göstərirdilər.

Azərbaycan SSR-in 1922-ci il dekabrın 9-da qəbul edilmiş, 1923-cü il fevralın 1-dən qüvvəyə minmiş birinci Cinayət Məcəlləsinin 85-ci maddəsində pul nişanları və dövlət faiz kağızları, markaları və dövlət ödənişinin digər nişanlarının saxtasını hazırlamağa görə məsuliyyət müəyyən edilirdi. Cinayət qabaqcadan əlbir olan bir neçə şəxs tərəfindən və peşə edilməklə törədildikdə cinayətin bütün iştirakçıları və köməkçiləri əmlakı müsadirə edilməklə ən yüksək cəzaya - güllələnməyə məhkum edilirdilər. Yüngülləşdirici hallar olduqda ciddi şəkildə təcrid edilməklə üç ildən az olmayan müddətə azadlıqdan məhrumetmə və əmlakı müsadirə edilmə cəzası nəzərdə tutulurdu.

1922-ci il Cinayət Məcəlləsinin 85-ci maddəsinin ikinci hissəsində saxta pul nişanları və dövlət faiz kağızları, markaları və dövlət ödənişinin digər nişanlarının hazırlamması cinayətini gizlədənlər üçün məsuliyyət nəzərdə tutulurdu. Göstərilən cinayəti gizlədən şəxslər üç ildən az olmayan müddətə azadlıqdan məhrumetmə və əmlakı müsadirə edilmə cəzasına məhkum edilirdilər. Həmçinin, cinayətin qabaqcadan əlbir olmayan şəxslər tərəfindən törədilməsinə görə də analoji cəza müəyyən edilirdi.

Azərbaycan SSR-in 1927-ci il dekabrın 3-də qəbul edilmiş və 1928-ci il yanvarın 15-dən qüvvəyə minmiş ikinci Cinayət Məcəlləsi respublikanın cinayət qanunvericiliyinin təkmilləşdirilməsi istiqamətində növbəti addım oldu. Bu Məcəllə otuz ildən artıq bir müddətdə müəyyən dəyişikliklərə və əlavələrə uğramaqla respublikanın cinayət qanunvericiliyi üçün əsas mənbə rolunu oynadı.

1927-ci il Cinayət Məcəlləsinin 84-cü maddəsinin birinci hissəsində metal sikkələrin, dövlət xəzinə biletlərinin, Dövlət Bankının biletlərinin və dövlət qiymətli kağızlarının bir peşə olaraq saxtasını hazırlamağa və ya satmağa, habelə xarici valyutanın saxtasını hazırlamağa və ya satmağa görə məsuliyyət müəyyən edilirdi. Göstərilən cinayəti törətməkdə təqsirli olanlar əmlakı müsadirə edilməklə güllələnmə cəzasına məhkum edilirdilər. Yüngülləşdirici hallar olduqda əmlakı tam və ya bir hissəsi müsadirə edilməklə ciddi şəkildə təcrid edilməklə iki ildən az olmayan müddətə azadlıqdan məhrumetmə cəzası nəzərdə tutulurdu.

Dövlət qiymətli kağızlarına dövlət istiqrazları vərəqləri aid edilirdi. SSRİ Ali Məhkəməsi Plenumunun 1936-cı il tarixli 53 saylı qərarına görə dövlət istiqrazları nömrələrinin, bu vərəqlər üzrə uduşu almaq üçün saxtalaşdırılması, bu cinayətlər mütəşəkkil dəstə və ya ayrı-ayrı şəxslər tərəfindən törədildikdə, əməl Azərbaycan SSR-in Cinayət Məcəlləsənin 84-cü maddəsi ilə tövsif edilməməli idi. Qərarda bir peşə

кimi olmayan ayrı-ayrı saxtaкarlıq hallarının isə Cinayət Məcəlləsənin 213-cü maddəsi ilə tövsif edilməsi müəyyən edilirdi.

Pul nişanlarının və ya qiymətli кağızların saxtasını hazırlama dediкdə qəlp siккələrin və ya əsl pul nişanlarına oxşar saxta pul nişanlarının, əsl qiymətli кağızlara oxşar saxta qiymətli кağızların hazırlanması yaxud əsl pul nişanlarının və ya qiymətli кağızların saxtalaşdırılması, yəni əsl pul nişanlarının və qiymətli кağızların dəyərinin artırılması (məsələn, bir manat üzərində «1» rəqəmini «10» rəqəminə çevirməк və s.) başa düşülürdü.

Azərbaycan Respubliкasının cinayət qanunvericiliyinin inкişafının növbəti mərhələsi Azərbaycan SSR-in sovet dövründə sayca üçüncü və sonuncu olan, 1960-cı il deкabrın 8-də qəbul edilmiş və 1961-ci il martın 1-dən qüvvəyə minmiş Cinayət Məcəlləsi ilə bağlıdır. Bu Məcəllə ilкin redaкsiyada iкi hissədən, on bir fəsildən, 264 maddədən ibarət idi. Onun 80-ci maddəsində dövlət xəzinə biletlərini, dövlət banк biletlərini, metal siккələri, dövlət qiymətli кağızlarını və ya xarici valyutanı satma məqsədilə saxtaкarlıqla hazırlama, habelə satmaya görə məsuliyyət müəyyən edilirdi. Göstərilən əməli törədənlər əmlaкı müsadirə olunmaqla üç ildən on beş ilədəк müddətə azadlıqdan məhrumetmə ilə cəzalandırılırdılar. Sonralar bu maddəyə bir neçə dəfə düzəlişlər edilmiş, göstərilən əməli mütəmadi edənlər üçün cəza sərtləşdirilmişdi. Belə кi, Məcəllənin son redaкsiyasında (1999) göstərilən əməli mütəmadi şəкildə törətməyə görə on ildən on beş ilədəк müddətə azadlıqdan məhrumetmə cəzası müəyyən edilmişdi.

Azərbaycan Respubliкasının 1999-cu il deкabrın 30-da qəbul edilmiş və 2000-ci il sentaybrın 1-dən qüvvəyə minmiş Cinayət Məcəlləsi ictimai həyatda baş verən кöкlü dəyişiкliкlərə, cəmiyyətin ictimai-iqtisadi və siyasi modelinin dəyişməsinə uyğun olaraq yeni, müasir prioritetlərə əsaslanan, cinayət hüquq nəzəriyyəsinin işləyib hazırladığı qabaqcıl baxışları və istiqamətləri özündə təcəssüm etdirən qanundur. Əvvəlкi Məcəllənin özünü təcrübədə doğrultmuş cinayət-hüquqi institut və normaları yeni Cinayət Məcəlləsində daha da təкmilləşdirilmişdir. Bütün bunlar Məcəllənin 204-cü maddəsində nəzərdə tutulmuş saxta pul və ya qiymətli кağızlar hazırlama və ya satma cinayətlərinə də aiddir.

Cinayət Məcəlləsinin 204.1-ci maddəsində satış məqsədi ilə saxta pul, qiymətli dövlət кağızları və ya xarici valyuta, yaxud xarici valyutada ifadə olunan qiymətli кağızları hazırlama, habelə satma əməllərinə görə məsuliyyət nəzərdə tutulur. 204.2-ci maddədə eyni əməllərin ağırlaşdırıcı hallarda – xeyli miqdarda və ya əvvəllər saxta pul və ya qiymətli кağızlar hazırlama və ya satmaya görə məhкum olunmuş şəxs tərəfindən törədilməsinə görə, 204.3-cü maddədə xüsusilə ağırlaşdırıcı hallarda – mütəşəккil dəstə tərəfindən; кülli miqdarda törədilməsinə görə məsuliyyət müəyyən edilir.

## ƏDƏBİYYAT


1. Владимиров Л.Е. Курс уголовного права. М.: 1908.
2. Лохвицкий А. Курс русского уголовного права. СПб., 1871.
3. Познышев С.В. Особенная часть русского уголовного права: сравнительный очерк важнейших отделов особенной части старого и нового уложений. М.: 1909.
4. СУ Азерб. ССР, 1920, № 1. Ст. 5.
5. Таганцев Н.С. Уложение о наказаниях уголовных и исправительных 1885 года. СПб., 1912.

## О РАЗВИТИИ В АЗЕРБАЙДЖАНСКОЙ РЕСПУБЛИКЕ УГОЛОВНОГО ЗАКОНОДАТЕЛЬСТВА ОБ ОТВЕТСТВЕННОСТИ ЗА ИЗГОТОВЛЕНИЕ ИЛИ СБЫТ ПОДДЕЛЬНЫХ ДЕНЕГ ИЛИ ЦЕННЫХ БУМАГ

**А.М.ДЖАВАНБАХТ ЛАЛА**

**РЕЗЮМЕ**

В статье исследуется история развития законодательства об ответственности за имеющее древнюю историю и обладающее большой общественной опасности, преступление - изготовление или сбыт поддельных денег или ценных бумаг, так как с начала 19 века Азербайджан входил в состав Российской империи, и здесь применялись имперские законы. Рассматриваемый вопрос изучается в начале на основе Уложение о наказаниях уголовного и исправительных от 1845 года, а затем – Уголовного Уложения от 1903 года. Указывается, что основные изложения этих Уложений, связанные с рассматриваемым преступлением использовались в последующем и даже в современном законодательстве.

Далее, преступление по изготовлению и сбыту поддельных денег или ценных бумаг исследуется в соответствии с УК Азербайджана от 1922, 1927 и 1960 гг.

Статья завершается соответствующими выводами по исследуемому вопросу.

## ABOUT THE DEVELOPMENT OF CRIMINAL LEGISLATION ON PREPARATION SECURITIES AND FICTITIOUS MONEY OR THEIR SALE IN THE REPUBLIC OF AZERBAIJAN

**A.M.JAVANBAKHT LALEH**

**SUMMARY**

In the article the historical development of legislation connected with preparation of fictitious money and securities and crime about their sale which have great ancient social danger is investigated. As Azerbaijan was annexed to the Russian Empire at the beginning of XIX century and the empire rules applied here, the envisaged matter is firstly studied according to Crime and Re-educate penalties of Russian legislation in the year of 1845 and on the base of Crime legislation in the year of 1903 as well.

The main points, connected with crime which is considered in this legislation and their previous and even contemporary use in legislation are shown.

Then the crime about preparation securities and fictitious money and their sale, is investigated according to the Criminal Code of Azerbaijan in the years of 1922, 1927 and 1960 as well.